**“Ekstradisiya haqqında” Avropa Konvensiyasının və onun Əlavə Protokollarının təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. 1957-ci il dekabrın 13-də Paris şəhərində imzalanmış "Ekstradisiya haqqında" Avropa Konvensiyası, onun 1975-ci il 15 oktyabr tarixli Əlavə Protokolu və 1978-ci il 17 mart tarixli İkinci Əlavə Protokolu müvafiq bəyanatlar və qeyd-şərtlər ilə (bəyanatların və qeyd-şərtlərin mətnləri əlavə olunur) **təsdiq edilsin**.

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**Heydər ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 may 2002-ci il
№ 323-IIQ

**Ekstradisiya haqqında**
**AVROPA KONVENSİYASI**

*Strasburq, 13 dekabr 1957-ci il*

Avropa Şurasının üzvü olub, bu Konvensiyanı imzalamış dövlətlər,

Avropa Şurasının üzvləri arasında daha sıx birliyə nail olmağı Şuranın məqsədi hesab edərək,

bu məqsədə sazişlər bağlanması və hüquq məsələlərində birgə fəaliyyət yolu ilə nail olmağı mümkün sayaraq,

ekstradisiya (cinayətkarların verilməsi) ilə bağlı vahid normaların qəbul edilməsinin bu eyniləşdirmə işinə kömək edəcəyi fikrində olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1
**Ekstradisiya ilə bağlı öhdəlik**

Razılığa gələn Tərəflər sorğu edən Tərəfin səlahiyyətli orqanlarının hər hansı cinayətə görə barəsində cinayət təqibini həyata keçirdikləri yaxud göstərilən orqanların hökmün və ya həbs barədə qərarın icrası üçün axtardıqları bütün şəxsləri bu Konvensiyada şərh olunmuş müddəa və şərtlərə riayət etmək şərti ilə bir-birinə verməyi öhdələrinə götürürlər.

Maddə 2
**Ekstradisiya üçün əsas olan cinayətlər**

1. Ekstradisiya sorğu edən Tərəfin və sorğu edilən Tərəfin qanunvericiliyinə müvafiq olaraq azadlıqdan məhrum etmə ilə cəzalandırılan yaxud həbs barədə qərara uyğun olaraq maksimum müddətə — ən azı bir il müddətinə həbs cəzası və ya daha ciddi cəza ilə cəzalandırılan cinayətlərlə bağlı həyata keçirilir. Məhkum etmə və həbs cəzası yaxud tutma haqqında qərar sorğu edən Tərəfin ərazisində həyata keçirildiyi hallarda müəyyən edilmiş cəza müddəti dörd aydan az olmamalıdır.

2. Əgər ekstradisiya haqqında sorğuya bir sıra ayrı-ayrı cinayətlər daxildirsə və onlardan hər biri sorğu edən Tərəfin və sorğu edilən Tərəfin qanunvericiliyinə müvafiq olaraq azadlıqdan məhrum etmə ilə cəzalandırılmalıdırsa yaxud onların hər birinə tutma haqqında qərarın qüvvəsi şamil edilirsə, lakin onlardan bəziləri cəza müddəti ilə bağlı müəyyən edilə bilən şərtə cavab vermirsə, sorğu edilən Tərəf, həmçinin digər cinayətlərə görə də ekstradisiyanı həyata keçirmək hüququna malikdir.

3. Qanunu bu maddənin 1-ci bəndində nəzərdə tutulmuş bəzi cinayətlərə görə ekstradisiyanı nəzərdə tutmayan Razılığa gələn hər hansı Tərəf belə cinayətləri özünə aid olan dərəcədə bu Konvensiyanın tətbiq dairəsindən istisna edə bilər.

4. Bu maddənin 3-cü bəndində nəzərdə tutulan hüquqdan istifadə etmək arzusunda olan Razılığa gələn hər hansı Tərəf öz təsdiqnaməsini və ya qoşulma barədə sənədini saxlanılmağa verdiyi anda Avropa Şurasının Baş katibinə ya ekstradisiya nəzərdə tutulan cinayətlərin siyahısını, ya da ekstradisiyanı istisna edən cinayətlərin siyahısını göndərir və eyni zamanda ekstradisiyaya icazə verən və ya onu istisna edən hüquqi müddəaları göstərir. Şuranın Baş katibi bu siyahıları Konvensiyanı imzalamış digər Tərəflərə göndərir.

5. Əgər Razılığa gələn hər hansı Tərəfin qanununa müvafiq olaraq sonradan digər cinayətlərə görə ekstradisiya istisna edilirsə, həmin Tərəf Baş katibi xəbərdar edir. Baş katib Konvensiyanı imzalamış digər Tərəfləri məlumatlandırır.

Belə bildiriş Baş katibin onu aldığı tarixdən üç ay keçdikdən sonra qüvvəyə minir.

6. Bu maddənin 4-cü və ya 5-ci bəndlərində nəzərdə tutulmuş hüquqdan istifadə edən hər hansı Tərəf bu Konvensiyanı onun qüvvəsi dairəsindən çıxarılmış cinayətlərə istənilən vaxt tətbiq edə bilər. O, belə dəyişikliklər barədə Şuranın Baş katibini məlumatlandırır və Baş katib Konvensiyanı imzalamış digər Tərəflərə məlumat verir.

7. Hər hansı Tərəf bu maddəyə müvafiq olaraq Konvensiyanın tətbiq dairəsindən çıxarılmış istənilən cinayətlərlə bağlı qarşılıqlı anlaşma nümayiş etdirə bilər.

Maddə 3
## Siyasi cinayətlər

1. Əgər barəsində sorğu edilən cinayəti sorğu edilən Tərəf siyasi cinayət yaxud siyasi cinayətlə bağlı cinayət hesab edirsə, ekstradisiya həyata keçirilmir.

2. Sorğu edilən Tərəfin belə hesab etməyə kifayət qədər əsası varsa ki, adi cinayətlə bağlı ekstradisiya barədə sorğu şəxsin irqi, dini, milli və ya siyasi əqidəsinə görə təqib edilməsi və ya cəzalandırılması məqsədilə verilmişdir yaxud bu səbəblərdən hər hansı birinə görə həmin şəxsin vəziyyətinə ziyan vurula bilər, bu halda da eyni qayda tətbiq edilir.

3. Dövlət başçısının və ya onun ailə üzvünün qətlə yetirilməsi yaxud qətlə yetirilməsinə cəhd bu Konvensiyanın məqsədləri üçün siyasi cinayət sayılmır.

4. Bu maddə Razılığa gələn Tərəflərin hər hansı digər çoxtərəfli beynəlxalq konvensiyaya uyğun olaraq üzərlərinə götürdükləri yaxud götürə biləcəkləri hər hansı öhdəliklərinə xələl gətirmir.

Maddə 4

**Hərbi cinayətlər**

Adi cinayət hüququna uyğun olaraq cinayət sayılmayan hərbi cinayətlərlə bağlı ekstradisiya bu Konvensiyanın tətbiq dairəsindən çıxarılır.

Maddə 5

**Fiskal cinayətlər**

Vergilər, rüsumlar, gömrük rüsumları və valyuta əməliyyatları ilə bağlı cinayətlərə görə ekstradisiya bu Konvensiyanın müddəalarına uyğun olaraq yalnız o halda həyata keçirilir ki, Razılığa gələn Tərəflər hər hansı belə cinayət və ya cinayətlər kateqoriyası ilə bağlı bu barədə qərar qəbul etmiş olsunlar.

Maddə 6

**Öz vətəndaşlarının ekstradisiyası**

1. a) Razılığa gələn Tərəf öz vətəndaşlarının ekstradisiyasından imtina etmək hüququna malikdir;

b) Razılığa gələn hər bir Tərəf imzalama zamanı yaxud öz təsdiqnaməsini və ya qoşulma barədə sənədini saxlanılmağa verdiyi vaxt bu Konvensiyanın məqsədinə görə "vətəndaşlar" terminինə öz bəyanatı ilə bildiyi kimi tərif verə bilər;

c) vətəndaşlıq, ekstradisiya barədə qərar qəbul edilən anda müəyyənləşdirilir; lakin əgər tələb edilən şəxs əvvəlcə qərarın qəbul edildiyi andan nəzərdə tutulan ekstradisiya anınadək olan dövr ərzində özünü sorğu edilən Tərəfin vətəndaşı hesab edirsə, sorğu edilən Tərəf bu maddənin a) yarımbəndinin müddəasından istifadə edə bilər.

2. Əgər sorğu edilən Tərəf öz vətəndaşını ekstradisiya etmirsə, o, sorğu edən Tərəfin xahişi ilə işi, əgər zəruri olarsa, cinayət təqibi başlanması üçün özünün səlahiyyətli orqanlarına göndərir. Bu məqsədlə cinayətə aidiyyəti olan sənədlər, məlumatlar və maddi sübutlar 12-ci maddənin 1-ci bəndində nəzərdə tutulmuş vasitələrin köməyi ilə pulsuz verilir. Sorğu edən Tərəf onun sorğusunun nəticələri barədə məlumatlandırılır.

Maddə 7

**Cinayətlərin törədildiyi yer**

1. Sorğu edilən Tərəf onun qanununa müvafiq olaraq bütünlüklə və ya qismən onun ərazisində yaxud onun ərazisi sayılan yerdə törədilmiş cinayətlə bağlı tələb olunan şəxsin ekstradisiyasından imtina edə bilər.

2. Ekstradisiya barədə sorğu edilən cinayət sorğu edən Tərəfin ərazisi hüdudlarından kənarda törədildiyi hallarda ekstradisiyadan yalnız o halda imtina edilə bilər ki, sorğu edilən Tərəfin qanunu onun ərazisi hüdudlarından kənarda törədilmiş belə cinayətlər kateqoriyasına görə cinayət təqibi nəzərdə tutmasın yaxud göstərilən cinayətə görə ekstradisiyaya yol verməsin.

Maddə 8

**Eyni xətalarla bağlı başa çatdırılmamış məhkəmə araşdırması**

Sorğu edilən Tərəf, əgər belə Tərəfin səlahiyyətli orqanları ekstradisiya barədə sorğu edilən cinayət və ya cinayətlərə görə tələb edilən şəxs barəsində cinayət təqibini həyata keçirirsə, tələb olunan şəxsin ekstradisiyasından imtina edə bilər.

Maddə 9

**NON BIS IN INDEM**

Əgər sorğu edilən Tərəfin səlahiyyətli orqanları ekstradisiya barədə sorğu edilən cinayət və ya cinayətlərə görə tələb edilən şəxs barəsində qəti qərar çıxarmışlarsa, ekstradisiya həyata keçirilmir. Əgər sorğu edilən Tərəfin səlahiyyətli orqanları həmin cinayətə və ya cinayətlərə görə cinayət təqibinə başlamamaq yaxud buna xitam vermək barədə qərar çıxarmışlarsa, ekstradisiyadan imtina edilə bilər.

Maddə 10

**Müddət**

Tələb olunan şəxs sorğu edən yaxud sorğu edilən Tərəfin qanununa müvafiq olaraq müddətin bitməsi ilə bağlı təqibə və ya cəzaya məruz qala bilmədiyi hallarda ekstradisiya həyata keçirilmir.

Maddə 11

**Ölüm cəzası**

Ekstradisiya barədə sorğu edilən cinayət sorğu edən Tərəfin qanununa uyğun olaraq ölüm cəzası ilə cəzalandırılmalıdırsa və belə cinayətə görə ölüm cəzası sorğu edilən Tərəfin qanununda nəzərdə tutulmursa yaxud adətən icra edilmirsə, əgər sorğu edən Tərəf ölüm cəzasının icra edilməyəcəyi barədə sorğu edilən Tərəfin yetərli saydığı təminatlar təqdim etməzsə, ekstradisiyadan imtina edilə bilər.

Maddə 12

**Sorğu və qoşma sənədlər**

1. Sorğu yazılı şəkildə verilir və diplomatik kanallarla ötürülür. İki və ya daha artıq Tərəf arasında birbaşa razılaşma əsasında digər ötürülmə vasitələri də nəzərdə tutula bilər.

2. Sorğuya aşağıdakılar əlavə edilməlidir:

a) ittihamnamənin və ya hökmün yaxud dərhal tutma barədə qərarın və ya həbs üçün orderin yaxud eyni qüvvəyə malik olan və sorğu edən Tərəfin qanununda nəzərdə tutulmuş prosedura uyğun olaraq verilmiş digər qərarın əsli və ya təsdiq edilmiş surəti;

b) törədilməsi ilə bağlı ekstradisiya barədə sorğu edilən cinayətlərin siyahısı. Onların törədildiyi vaxt və yer, onların hüquqi tövsifi və müvafiq hüquqi müddəalara istinadlar mümkün qədər dəqiq göstərilməlidir; və

c) müvafiq qanunverici aktların surəti yaxud bu qeyri-mümkün olduqda müvafiq qanunun adı və tələb edilən şəxsin mümkün qədər daha dəqiq təsviri, eləcə də onun şəxsiyyətinin və vətəndaşlığının müəyyənləşdirilməsinə kömək edə bilən hər hansı digər informasiya.

Maddə 13

**Əlavə məlumat**

Əgər sorğu edən Tərəfin bildirdiyi məlumat sorğu edilən Tərəfin bu Konvensiyaya uyğun olaraq qərar qəbul edə bilməsi üçün yetərli sayılmırsa, sonuncu Tərəf zəruri əlavə məlumatı tələb edə və onun alınması üçün son müddət təyin edir bilər.

Maddə 14

**Konkretlik qaydası**

1. Aşağıdakı hallar istisna olmaqla, ekstradisiya edilmiş şəxs, ekstradisiya edildiyi cinayətdən başqa, özünün verilməsinədək törədilmiş hər hansı bir cinayətə görə cinayət təqibinə məruz qala bilməz, hökmün və ya tutma barədə qərarın icrası məqsədilə məhkum edilə və ya tutula bilməz və şəxsi azadlığı heç bir səbəbə görə məhdudlaşdırıla bilməz:

a) onu ekstradisiya edən Tərəf razı olarsa; razılıq barədə sorğu 12-ci maddədə göstərilən sənədlərin və ekstradisiya edilən şəxsin müvafiq cinayətlə bağlı verdiyi hər hansı bəyanatın hüquqi qeydi ilə birlikdə göndərilir. Razılıq o hallarda verilir ki, barəsində sorğu edilən cinayət bu Konvensiyanın müddəalarına uyğun olaraq ekstradisiya üçün əsas olsun;

b) həmin şəxs ekstradisiya edildiyi Tərəfin ərazisini tərk etmək imkanına malik olduğu halda özünün tam azad edilməsindən sonra 45 gün ərzində bunu etməzsə yaxud həmin ərazini tərk etdikdən sonra oraya qayıdarsa.

2. Lakin sorğu edən Tərəf müddətin keçməsinin istənilən hüquqi nəticələrinin qarşısını almaq üçün müvafiq şəxsin öz ərazisi hüdudlarından çıxarılması üçün zəruri olan istənilən tədbirləri yaxud müqəssirin özü olmadan cinayət təqibi də daxil olmaqla, həmin Tərəfin qanununa uyğun olaraq zəruri sayılan istənilən tədbirləri görə bilər.

3. Törədilməsi barədə ittiham irəli sürülən cinayətin təsviri cinayət təqibi gedişində dəyişdikdə, verilən şəxsin cinayət təqibinə başlanılır yaxud onun barəsində yalnız buna görə hökm çıxarılır ki, cinayət özünün yeni təsvirinə uyğun olaraq öz tərkib hissələrinə görə, ekstradisiyanın həyata keçirilməsinə imkan verən cinayətdir.

Maddə 15

**Üçüncü dövlətə verilmə**

14-cü maddənin 1 b) bəndində nəzərdə tutulanlar istisna olmaqla, sorğu edən Tərəf həmin sorğu edən Tərəfə ekstradisiya edilən və özünün ekstradisiyasınadək törətdiyi cinayətlərə görə göstərilən digər Tərəf yaxud üçüncü dövlət tərəfindən axtarışda olan şəxsi sorğu edilən Tərəfin razılığı olmadan başqa Tərəfə yaxud üçüncü dövlətə vermir.

Sorğu edilən Tərəf 12-ci maddənin 2-ci bəndində göstərilən sənədlərin təqdim edilməsi barədə sorğu ilə müraciət edə bilər.

Maddə 16

**Müvəqqəti həbs**

1. Təxirəsalınmaz halda sorğu edən Tərəfin səlahiyyətli orqanları axtarışda olan şəxsin ibtidai həbsi barədə xahişlə müraciət edə bilərlər. Sorğu edilən Tərəfin səlahiyyətli orqanları onun qanununa müvafiq olaraq bu məsələ üzrə qərar qəbul edirlər.

2. İbtidai həbs barədə xahişdə göstərilir ki, 12-ci maddənin 2 a) bəndində göstərilən sənədlərdən biri mövcuddur və ekstradisiya barədə sorğu göndərmək nəzərdə tutulur. Xahişdə, həmçinin göstərilir ki, ekstradisiya barədə sorğu hansı cinayətlə bağlı göndəriləcək, belə cinayət harada və nə vaxt törədilmişdir, həmçinin imkan daxilində, axtarılan şəxsin təsviri verilir.

3. İbtidai həbs barədə xahiş sorğu edilən Tərəfin səlahiyyətli orqanlarına diplomatik kanallarla yaxud bilavasitə poçt və ya teleqrafla yaxud beynəlxalq cinayət polisi təşkilatı

(İnterpol) vasitəsilə yaxud yazılı təsdiqi təmin edən hər hansı digər vasitələrin köməyi ilə və ya sorğu edilən Tərəf üçün münasib olan digər vasitələrlə göndərilir. Sorğu edən orqana onun sorğusunun icrasının vəziyyəti barədə dərhal məlumat verilir.

4. Əgər sorğu edilən Tərəf ekstradisiya barədə sorğunu və 12-ci maddədə göstərilən sənədləri həbsdən 18 gün keçənədək almamışdırsa, ibtidai həbsə xitam verilə bilər. İstənilən halda bu dövr belə həbs tarixindən başlayaraq 40 gündən artıq olmur. İstənilən vaxt müvəqqəti azad etmə imkanı istisna edilmir, lakin sorğu edilən Tərəf axtarılan şəxsin qaçmasının qarşısını almaqdan ötrü zəruri saydığı istənilən tədbirləri görür.

5. Əgər ekstradisiya barədə sonradan xahiş alınmışsa, azad edilmə təkrar həbsə və ekstradisiyaya mane olmur.

Maddə 17

**Rəqabətli sorğular**

Əgər ekstradisiya barədə eyni zamanda bir neçə dövlət eyni bir cinayətə yaxud müxtəlif cinayətlərə görə sorğu edərsə, sorğu edilən Tərəf bütün halları və xüsusən də cinayətin nisbətən ağırlığını və törədilmə yerini, sorğuların müvafiq tarixlərini, tələb olunan şəxsin vətəndaşlığını və sonradan başqa dövlətə ekstradisiya imkanını nəzərə almaqla öz qərarını qəbul edir.

Maddə 18

**Ekstradisiya edilməli olan şəxsin başqa tərəfə verilməsi**

1. Sorğu edilən Tərəf özünün ekstradisiya ilə bağlı qərarı haqqında 12-ci maddənin 1ci bəndində göstərilən vasitələrlə sorğu edən Tərəfi məlumatlandırır.

2. Ekstradisiyadan istənilən tam və qismən imtina ilə bağlı səbəblər göstərilir.

3. Sorğu yerinə yetirildiyi halda sorğu edən Tərəf verilmənin yeri və tarixi və tələb olunan şəxsin verilmə məqsədilə saxlanıldığı müddət barədə məlumatlandırılır.

4. Bu maddənin 5-ci bəndinin müddəalarına riayət etmək şərti ilə, əgər tələb edilən şəxs göstərilən tarixdə verilməmişdirsə, o, on beş gün ərzində azad edilə bilər və istənilən halda 30 gün keçdikdən sonra azad edilir. Sorğu edilən Tərəf eyni bir cinayətə görə onun ekstradisiyasından imtina edə bilər.

5. Əgər ekstradisiya edilməli olan şəxsin verilməsində və ya qəbulunda Tərəfə özündən asılı olmayan hallar mane olursa, həmin Tərəf digər Tərəfə bu barədə məlumat verir. Hər iki Tərəf verilmənin yeni tarixi barədə razılığa gəlirlər və bu maddənin 4-cü bəndinin müddəaları tətbiq edilir.

Maddə 19

**Təxirə salınmış yaxud şərti verilmə**

1. Sorğu edilən Tərəf verilmə barədə sorğu ilə bağlı qərar qəbul edərək barəsində sorğu edilən şəxsin verilməsini təxirə sala bilər ki, həmin Tərəf onun barəsində cinayət təqibinə başlaya bilsin yaxud əgər bu şəxs artıq məhkum edilmişsə, o, ekstradisiya barədə sorğu edilən cinayətdən fərqli cinayətə görə öz cəzasını bu Tərəfin ərazisində çəkə bilsin.

2. Verilməni təxirə salmaq əvəzinə sorğu edilən Tərəf, barəsində sorğu edilən şəxsi Tərəflər arasında razılaşma əsasında müəyyən edilən şərtlərə uyğun surətdə müvəqqəti olaraq sorğu edən Tərəfə ekstradisiya edə bilər.

Maddə 20

**Mülkiyyətin verilməsi**

1. Sorğu edilən Tərəf, onun qanunlarının imkan verdiyi həddə və sorğu edən Tərəfin xahişi ilə:

a) maddi sübut kimi tələb oluna bilən; yaxud

b) cinayət nəticəsində əldə edilmiş və həbs anında, ekstradisiyası tələb edilən şəxsin ixtiyarında olmuş yaxud sonradan aşkar edilmiş mülkiyyəti müsadirə edir və sorğu edən Tərəfə verir.

2. Hətta barəsində razılıq əldə edilmiş şəxsin ekstradisiyası onun ölümü yaxud qaçması ilə bağlı həyata keçirilə bilmədiyi halda belə, bu maddənin 1-ci bəndində göstərilən mülkiyyət sorğu edən Tərəfə verilir.

3. Göstərilən mülkiyyət sorğu edilən Tərəfin ərazisində həbs altına alınmalı yaxud müsadirə edilməli olduqda həmin Tərəf cinayət təqibinin sona çatmaması ilə bağlı olaraq, bu mülkiyyəti müvəqqəti olaraq saxlaya yaxud qaytarma şərti ilə verə bilər.

4. Sorğu edilən Tərəfin yaxud üçüncü Tərəflərin göstərilən mülkiyyət üçün əldə edə bildikləri istənilən hüquqlar saxlanılır. Bu hüquqların mövcud olduğu hallarda mülkiyyət məhkəmədən sonra mümkün qədər tez bir zamanda əvəzsiz olaraq sorğu edilən Tərəfə qaytarılır.

Maddə 21

**Tranzit**

1. Razılığa gələn Tərəflərdən birinin ərazisindən tranzitə 12-ci maddənin 1-ci bəndində göstərilən vasitələrin köməyi ilə göndərilmiş sorğu təqdim edildikdə razılıq verilir, bir şərtlə ki, müvafiq cinayəti, tranzitin xahiş edildiyi Tərəf bu Konvensiyanın 3-cü və 4-cü maddələrinə aidiyyəti olan siyasi xarakterli cinayət yaxud sırf hərbi xarakterli cinayət hesab etməsin.

2. Tranzit barədə sorğu almış ölkənin vətəndaşının tranzitindən 8-ci maddənin mənasına görə imtina edilə bilər.

3. Bu maddənin 4-cü bəndinin müddəalarına riayət olunması şərti ilə 12-ci maddənin 2-ci bəndində göstərilən sənədləri təqdim etmək zəruridir.

4. Hava nəqliyyatından istifadə olunursa, aşağıdakı müddəalar tətbiq edilir:

a) yerə enmə nəzərdə tutulmadıqda sorğu edən Tərəf ərazisi üzərindən uçuşun keçiriləcəyi Tərəfi xəbərdar edir və təsdiqləyir ki, 12-ci maddənin 2 a) bəndində göstərilən sənədlərdən biri mövcuddur. Planlaşdırılmamış enmə halında belə xəbərdarlıq 16-cı maddədə nəzərdə tutulduğu qaydada ibtidai həbs üçün sorğu qüvvəsinə malikdir və sorğu edən Tərəf tranzit barədə rəsmi sorğu təqdim edir;

b) yerə enmə nəzərdə tutulduqda, sorğu edən Tərəf tranzit barədə rəsmi sorğu təqdim edir.

5. Lakin hər hansı Tərəf imzalama zamanı yaxud öz təsdiqnaməsini və ya bu Konvensiyaya qoşulma barədə sənədini saxlanılmaq üçün təhvil verdiyi anda bəyan edə bilər ki, o hər hansı bir şəxsin tranzitinə yalnız özünün ekstradisiya üçün tələb etdiyi bəzi yaxud bütün şərtlərə riayət edilməklə icazə verəcək. Bu halda qarşılıqlı güzəşt prinsipi tətbiq edilə bilər.

6. Verilən şəxsin tranziti onun irqi, dini, vətəndaşlığı yaxud siyasi əqidəsi ilə bağlı həmin şəxsin həyatı və ya azadlığı üçün təhlükə yarana biləcəyini hesab etmək üçün əsaslar olduğu hər hansı ərazinin üzərindən həyata keçirilmir.

Maddə 22

**Prosedur**

Bu Konvensiyada başqa halın nəzərdə tutulması istisna olmaqla, ekstradisiya və ibtidai həbslə bağlı prosedur yalnız sorğu edilən Tərəfin qanunvericiliyi ilə tənzimlənir.

Maddə 23

**İstifadə edilən dil**

Sənədlər sorğu edən yaxud sorğu edilən Tərəfin dilində təqdim edilir. Sorğu edilən Tərəf öz seçiminə görə sənədlərin Avropa Şurasının rəsmi dillərindən birinə tərcüməsini tələb edə bilər.

Maddə 24

**Xərclər**

1. Sorğu edilən Tərəfin ərazisində ekstradisiya ilə bağlı çəkilən xərcləri sorğu edən Tərəf ödəyir.

2. Tranzit barədə sorğu almış Tərəfin ərazisindən tranzitlə bağlı çəkilən xərcləri sorğu edən Tərəf ödəyir.

3. Sorğu edilən Tərəfin metropoliyası hüdudlarından kənarda yerləşən ərazidən ekstradisiya həyata keçirildiyi halda bu ərazidən sorğu edən Tərəfin metropoliyasının ərazisinədək gedişlə bağlı xərcləri sonuncu ödəyir. Sorğu edilən Tərəfin metropoliyası hüdudlarından kənarda yerləşən ərazidən onun metropoliyası ərazisinədək gedişlə bağlı xərclərə də eyni qayda tətbiq olunur.

Maddə 25

**“Tutma haqqında qərar” termininin tərifi**

Bu Konvensiyanın məqsədləri üçün “tutma haqqında qərar” ifadəsi azadlıqdan məhrum etməni nəzərdə tutan və həbs cəzası barədə hökmə əlavə olaraq yaxud onun əvəzinə cinayət məhkəməsinin çıxardığı hər hansı qərar deməkdir.

Maddə 26

**Qeyd-şərtlər**

1. Razılığa gələn hər bir Tərəf bu Konvensiyanı imzalayarkən yaxud öz təsdiqnaməsini və ya qoşulma barədə sənədini verərkən Konvensiyanın hər hansı müddəası yaxud müddəaları ilə bağlı qeyd-şərt bildirə bilər.

2. Qeyd-şərt bildirmiş Razılığa gələn hər hansı Tərəf şərait imkan verən kimi həmin qeyd-şərti geri götürür. Qeyd-şərtin bu cür geri götürülməsi Avropa Şurasının Baş katibini xəbərdar etmək yolu ilə həyata keçirilir.

3. Konvensiyanın hər hansı bir müddəası ilə bağlı qeyd-şərt bildirmiş Razılığa gələn Tərəf digər Tərəfin göstərilən müddəanı onun özünün qəbul etdiyindən artıq dərəcədə tətbiq etməsini tələb edə bilməz.

Maddə 27

**Əraziyə tətbiq**

1. Bu Konvensiya Razılığa gələn Tərəflərin metropoliyalarının ərazilərinə tətbiq edilir.

2. Fransaya münasibətdə o, həmçinin Əlcəzairə, dənizaşırı departamentlərə, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına münasibətdə isə Normandı adaları və Men adasına da tətbiq edilir.

3. Almaniya Federativ Respublikası bu Konvensiyanın tətbiqini Avropa Şurası Baş katibinin adına bildiriş göndərmək yolu ilə Berlin torpağına şamil edə bilər. Avropa Şurasının Baş katibi belə bəyanat barədə digər Tərəflərə məlumat verir.

4. Razılığa gələn iki və ya daha çox Tərəf arasında birbaşa razılaşma əsasında, razılaşmada şərh olunmuş şərtlərə riayət edilməsi şərti ilə, bu Konvensiyanın tətbiqi bu maddənin 1, 2 və 3-cü bəndlərində nəzərdə tutulan və beynəlxalq əlaqələri üçün hər hansı belə Tərəfin məsuliyyət daşıdığı belə Tərəflərin hər hansı ərazisinə şamil edilə bilər.

Maddə 28

**Bu Konvensiya ilə ikitərəfli sazişlər arasında münasibətlər**

1. Bu Konvensiya tətbiq olunduğu ölkələrə münasibətdə Razılığa gələn hər hansı iki Tərəf arasında ekstradisiyanı tənzimləyən hər hansı ikitərəfli müqavilələrin, konvensiyaların yaxud sazişlərin müddəalarını əvəz edir.

2. Razılığa gələn Tərəflər yalnız bu Konvensiyanın müddəalarını tamamlamaq yaxud onun ehtiva etdiyi prinsiplərin tətbiqini asanlaşdırmaq üçün öz aralarında ikitərəfli və çoxtərəfli sazişlər bağlaya bilərlər.

3. İki və ya daha artıq Razılığa gələn Tərəf arasında ekstradisiya vahid normalar əsasında həyata keçirildiyi hallarda Tərəflər ekstradisiya ilə bağlı öz qarşılıqlı münasibətlərini bu Konvensiyanın müddəalarından asılı olmayaraq yalnız belə sistemə müvafiq qaydada tənzimləməkdə sərbəstdirlər. Hər biri digər Tərəfin və ya Tərəflərin ərazisində verilmiş həbs barədə orderin onun öz ərazisində icrasını nəzərdə tutan qüvvədə olan qanunlara malik iki və ya daha artıq Razılığa gələn Tərəf arasındakı münasibətlərdə də eyni prinsip tətbiq olunur. Bu bəndə uyğun olaraq öz aralarında bu Konvensiyanın tətbiqini istisna edən yaxud gələcəkdə istisna edə biləcək Razılığa gələn Tərəflər Avropa Şurasının Baş katibinə lazımi qaydada bildiriş göndərirlər. Baş katib bu bəndə uyğun olaraq aldığı hər hansı bildiriş barədə Razılığa gələn digər Tərəfləri məlumatlandırır.

Maddə 29

**İmzalanma, ratifikasiya və qüvvəyə minmə**

1. Bu Konvensiya Avropa Şurası üzvlərinin imzalaması üçün açıqdır. O, ratifikasiya olunmalıdır. Təsdiqnamələr Şuranın Baş katibinə saxlanılmağa verilir.

2. Konvensiya üçüncü təsdiqnamənin saxlanılmağa verildiyi tarixdən 90 gün sonra qüvvəyə minir.

3. Konvensiyanı sonradan ratifikasiya edən onu imzalamış hər hansı Tərəf üçün Konvensiya həmin Tərəfin öz təsdiqnaməsini saxlanılmağa verdiyi tarixdən 90 gün sonra qüvvəyə minir.

Maddə 30

**Qoşulma**

1. Avropa Şurasının Nazirlər Komitəsi Şura üzvü olmayan dövləti bu Konvensiyaya qoşulmağa dəvət edə bilər, bir şərtlə ki, belə dəvətdən ibarət olan qətnamə Konvensiyanı ratifikasiya etmiş Şura üzvləri tərəfindən yekdilliklə bəyənilsin.

2. Qoşulma bu barədə sənədin Şuranın Baş katibinə saxlanılmağa verilməsi yolu ilə həyata keçirilir və həmin sənədin saxlanılmağa verilməsindən 90 gün sonra qüvvəyə minir.

Maddə 31

**Denonsasiya**

Razılığa gələn hər hansı Tərəf Avropa Şurasının Baş katibinə bildiriş göndərməklə Konvensiyanı özünə aid olan dərəcədə denonsasiya edə bilər. Denonsasiya Şuranın Baş katibinin belə bildirişi aldığı tarixdən altı ay keçdikdən sonra qüvvəyə minir.

Maddə 32

**Bildiriş**

Avropa Şurasının Baş katibi Şura üzvlərini və bu Konvensiyaya qoşulmuş hər bir dövlətin hökumətini:

a) hər hansı təsdiqnamənin və ya qoşulma haqqında sənədin saxlanılmağa verilməsi;

b) bu Konvensiyanın qüvvəyə minmə tarixi;

c) 6-cı maddənin 1-ci bəndinin və 21-ci maddənin 5-ci bəndinin müddəalarına uyğun olaraq verilmiş hər hansı bəyanat;

d) 26-cı maddənin 1-ci bəndinə uyğun olaraq edilmiş hər hansı qeyd-şərt;

e) 26-cı maddənin 2-ci bəndinə uyğun olaraq, istənilən qeyd-şərtin geri götürülməsi;

f) 31-ci maddənin müddəalarına uyğun olaraq, denonsasiya barədə alınmış hər hansı bildiriş və belə denonsasiyanın qüvvəyə minmə tarixi barədə məlumatlandırır.

Bunların təsdiqi olaraq, lazımi qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər bu Konvensiyanı imzaladılar.

1957-ci il dekabrın 13-də Parisdə ingilis və fransız dillərində, hər iki mətni eyni qüvvəyə malik olan yeganə nüsxədə imzalanmışdır; həmin nüsxə Avropa Şurasının arxivində saxlanılacaq. Avropa Şurasının Baş katibi Konvensiyanın təsdiq edilmiş surətlərini onu imzalamış hökumətlərə göndərir.

**Ekstradisiya haqqında Avropa Konvensiyasına dair**
**Əlavə Protokol**
*Strasburq, 15 oktyabr 1975-ci il*

Avropa Şurasının üzvü olub, bu Protokolu imzalamış dövlətlər 1957-ci il dekabrın 13-də Parisdə imzalanmaq üçün açılmış Ekstradisiya haqqında Avropa Konvensiyasının (bundan sonra — Konvensiya) müddəalarını və xüsusən də onun 3-cü və 9-cu maddələrini nəzərə alaraq,

bəşəriyyətin və ayrı-ayrı şəxslərin müdafiəsini gücləndirmək məqsədilə bu maddələrə əlavələr etməyi gərəkli hesab edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

**I fəsil**

Maddə 1

Konvensiyanın 3-cü maddəsinin tətbiqi məqsədləri üçün aşağıdakı cinayətlər siyasi cinayətlər sayılmır:

a) Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 1948-ci il dekabrın 9-da qəbul etdiyi Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalandırma haqqında Konvensiyada göstərilmiş bəşəriyyət əleyhinə cinayətlər;

b) Döyüşən ordularda yaralıların və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında 1949-cu il tarixli Cenevrə Konvensiyasının 50-ci maddəsində, Dənizdə silahlı qüvvələr tərkibindən yaralıların, xəstələrin və gəmi qəzasına uğrayanların vəziyyətinin yaxşılaşdırılması haqqında 1949-cu il tarixli Cenevrə Konvensiyasının 51-ci maddəsində, Hərbi əsirlərlə rəftar haqqında 1949-cu il tarixli Cenevrə Konvensiyasının 130-cu maddəsində və Müharibə zamanı mülki əhalinin qorunması haqqında 1949-cu il tarixli Cenevrə Konvensiyasının 147-ci maddəsində göstərilmiş xətalar;

c) bu Protokol qüvvəyə minərkən qüvvədə olan müharibə qanunlarını və həmin vaxtadək mövcud olan, Cenevrə Konvensiyalarının yuxarıda göstərilən müddəalarında hələ nəzərə alınmamış müharibə adətlərinin müqayisə edilə bilən hər hansı pozulmaları.

**II fəsil**

Maddə 2

Konvensiyanın 9-cu maddəsinə aşağıdakı mətn əlavə olunur, bu zaman Konvensiyanın əvvəlki 9-cu maddəsi 1-ci bənd, aşağıdakı müddəalar isə 2-ci, 3-cü və 4-cü bəndlər olur:

"2. Konvensiyanın iştirakçısı olan üçüncü dövlətdə işi üzrə qəti qərar çıxarılmış şəxsin, barəsində həmin iş qaldırılmış cinayət yaxud cinayətlərlə bağlı ekstradisiyası aşağıdakı hallarda həyata keçirilmir:

a) əgər yuxarıda adı çəkilən qərar onu məsuliyyətdən azad edirsə;

b) əgər həbs müddəti yaxud onun barəsində görülmüş cəza tədbiri:

i) tam tətbiq edilmişdirsə;

ii) bütünlüklə yaxud tətbiq edilməmiş hissəsinə görə əfv və ya amnistiya predmeti olmuşdursa;

c) əgər məhkəmə cinayətkarı onun üzərinə sanksiyalar qoymadan məhkum etmişdirsə.

3. Bununla belə, 2-ci bənddə göstərilən hallarda ekstradisiya haqqında qərar aşağıdakı hallarda qəbul oluna bilər:

a) barəsində məhkəmə qərarı çıxarılmış cinayət sorğu edən dövlətdə dövlət statusuna malik olan şəxsə, idarəyə yaxud hər hansı subyektə qarşı törədilmişdirsə;

b) barəsində məhkəmə qərarı çıxarılmış şəxs sorğu edən dövlətdə dövlət statusuna malik olmuşdursa;

c) barəsində məhkəmə qərarı çıxarılmış cinayət bütünlüklə və ya qismən sorğu edən dövlətin ərazisində yaxud onun ərazisi sayılan yerdə törədilmişdirsə.

4. 2-ci və 3-cü bəndlərin müddəaları cinayət işləri üzrə başqa dövlətdə çıxarılmış məhkəmə qərarları barədə ne bis in idem prinsipinin qüvvəsi ilə bağlı daha geniş daxili müddəaların tətbiqinə mane olmur”.

**III fəsil**

Maddə 3

1. Bu Protokol Avropa Şurasının üzvü olub Konvensiyanı imzalamış dövlətlərin imzalaması üçün açıqdır. O, ratifikasiya edilməli, qəbul edilməli və ya bəyənilməlidir. Təsdiqnamələr yaxud qəbul etmə və ya bəyənmə barədə sənədlər Avropa Şurasının Baş katibinə saxlanılmağa verilir.

2. Protokol üçüncü təsdiqnamənin yaxud qəbul etmə və ya bəyənmə barədə sənədin saxlanılmağa verilməsindən 90 gün sonra qüvvəyə minir.

3. Protokolu sonradan ratifikasiya edən, qəbul edən və ya bəyənən onu imzalamış dövlətə münasibətdə bu Protokol həmin dövlətin təsdiqnaməsinin yaxud qəbul etmə və ya bəyənmə barədə sənədinin saxlanılmağa verilməsindən 90 gün sonra qüvvəyə minir.

4. Avropa Şurasının üzvü olan dövlət, əgər eyni vaxtda yaxud əvvəlcə Konvensiyanı ratifikasiya etməmişdirsə, bu Protokolu ratifikasiya edə, qəbul edə yaxud bəyənə bilməz.

Maddə 4

1. Konvensiyaya qoşulan hər hansı dövlət bu Protokol qüvvəyə mindikdən sonra ona qoşula bilər.

2. Bu cür qoşulma, bu barədə sənədin Avropa Şurasının Baş katibinə saxlanılmağa verilməsi yolu ilə həyata keçirilir və onun saxlanılmağa verilməsindən 90 gün sonra qüvvəyə minir.

Maddə 5

1. Hər bir dövlət imzalama zamanı yaxud öz təsdiqnaməsini və ya qəbul etmə, bəyənmə yaxud qoşulma barədə sənədini saxlamağa verərkən, bu Protokolun qüvvəsinin şamil edildiyi ərazini və ya əraziləri göstərə bilər.

2. Hər bir dövlət öz təsdiqnaməsini və ya qəbul etmə, bəyənmə yaxud qoşulma barədə sənədini saxlanılmağa verərkən yaxud hər hansı başqa bir vaxt Avropa Şurası Baş katibinin adına bəyanat göndərmək yolu ilə bu Protokolun qüvvəsini bəyanatda göstərilən, beynəlxalq

əlaqələrinə görə həmin dövlətin məsuliyyət daşıdığı və ya adından çıxış etmək səlahiyyətinə malik olduğu hər hansı digər əraziyə və ya ərazilərə şamil edə bilər.

3. Əvvəlki bəndə uyğun olaraq verilmiş hər hansı bəyanat bu Protokolun 8-ci maddəsində nəzərdə tutulmuş prosedura uyğun olaraq belə bəyanatda göstərilən istənilən əraziyə münasibətdə geri götürülə bilər.

Maddə 6

1. Hər hansı dövlət imzalama zamanı yaxud öz təsdiqnaməsini və ya qəbul etmə, bəyənmə yaxud qoşulma barədə sənədini saxlanılmağa verərkən bəyan edə bilər ki, o, I və ya II fəsilləri qəbul etmir.

2. Razılığa gələn hər hansı Tərəf əvvəlki bəndə uyğun olaraq verdiyi bəyanatı Avropa Şurası Baş katibinin adına bəyanat göndərmək yolu ilə geri götürə bilər; bəyanat alındığı gündən qüvvəyə minir.

3. Bu Protokolun müddəaları ilə bağlı heç bir qeyd-şərtə yol verilmir.

Maddə 7

1. Avropa Şurasının Cinayətkarlıq Problemləri üzrə Avropa Komitəsinə bu Protokolun yerinə yetirilməsi barədə məlumat verilir və Komitə onun həyata keçirilməsi gedişində yarana bilən hər hansı problemin dinc yolla nizama salınmasına kömək etmək məqsədilə zəruri olan hər şeyi edir.

Maddə 8

1. Razılığa gələn hər bir Tərəf Avropa Şurası Baş katibinin adına bildiriş göndərmək yolu ilə bu Protokolu özünə aidiyyəti olan həddə denonsasiya edə bilər.

2. Belə denonsasiya Baş katibin bu cür bildirişi almasından altı ay sonra qüvvəyə minir.

3. Konvensiyanın denonsasiyası avtomatik olaraq bu Protokolun denonsasiyasına səbəb olur.

Maddə 9

Avropa Şurasının Baş katibi Şuranın üzvü olan dövlətləri və Konvensiyaya qoşulmuş hər hansı dövləti aşağıdakılar barədə xəbərdar edir:

a) hər hansı imzalama;

b) hər hansı təsdiqnamənin və ya qəbul etmə, bəyənmə yaxud qoşulma barədə sənədin saxlanılmağa verilməsi;

c) bu Protokolun 3-cü maddəsinə uyğun olaraq qüvvəyə minməsinin hər hansı tarixi;

d) 5-ci maddənin müddəalarına uyğun olaraq alınmış hər hansı bəyanat və belə bəyanatın hər hansı geri götürülməsi;

e) 6-cı maddənin 1-ci bəndinin müddəalarına uyğun olaraq verilmiş hər hansı bəyanat;

f) hər hansı bəyanatın 6-cı maddənin 2-ci bəndinə uyğun olaraq geri götürülməsi;

g) 8-ci maddənin müddəalarına uyğun olaraq alınmış hər hansı bildiriş və denonsasiyanın qüvvəyə minmə tarixi.

Bunların təsdiqi olaraq, lazımi qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər bu Protokolu imzaladılar.

1975-ci il oktyabrın 15-də Strasburqda ingilis və fransız dillərində, hər iki mətni eyni qüvvəyə malik olan bir nüsxədə imzalanmışdır; həmin nüsxə Avropa Şurasının arxivində saxlanılacaq. Avropa Şurasının Baş katibi təsdiq edilmiş nüsxələri bu Protokolu imzalamış və ona qoşulan dövlətlərin hər birinə göndərir.

**Ekstradisiya haqqında Avropa Konvensiyasına dair**
**İkinci Əlavə Protokol**
*Strasburq, 17 mart 1978-ci il*

Avropa Şurasının üzvü olub, bu Protokolu imzalamış dövlətlər,

1977-ci il dekabrın 13-də Parisdə imzalanmaq üçün açılmış Ekstradisiya haqqında Avropa Konvensiyasının (bundan sonra — Konvensiya) fiskal cinayətlər sahəsində qəbuluna dəstək vermək arzusunda olaraq,

Konvensiyaya müəyyən müddəalar əlavə etməyi gərəkli sayaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

**I fəsil**

Maddə 1

Konvensiyanın 2-ci maddəsinin 2-ci bəndinə aşağıdakı müddəa əlavə edilir:

"Bu qayda, həmçinin cərimə sanksiyaları tətbiq edilən cinayətlərə də tətbiq olunur.".

**II fəsil**

Maddə 2

Konvensiyanın 5-ci maddəsi aşağıdakı müddəalarla əvəz edilir:

**"Fiskal cinayətlər**

1. Vergilər, rüsumlar, gömrük rüsumları və valyuta əməliyyatları ilə bağlı cinayətlərə görə ekstradisiya, əgər cinayət sorğu edilən Tərəfin qanununa uyğun olaraq eyni qəbildən olan cinayətlərə aiddirsə, Razılığa gələn Tərəflər arasında Konvensiyanın müddəalarına uyğun olaraq həyata keçirilir.

2. Əgər sorğu edilən Tərəfin qanununda eyni tipli vergilər və ya rüsumlar qoyulmursa yaxud vergilər, rüsumlar, gömrük rüsumları və ya valyuta əməliyyatları barədə sorğu edən Tərəfin qanunundakı ilə eyni göstərişlər yoxdursa, ekstradisiyadan bu əsasda imtina edilə bilməz.".

**III fəsil**

Maddə 3

Konvensiyaya aşağıdakı müddəalar əlavə edilir:

**"Müqəssirin iştirakı olmadan məhkəmənin rəyi**

1. Razılığa gələn Tərəf Razılığa gələn digər Tərəfdən müqəssirin özü olmadan barəsində qərar qəbul edilmiş hökmün çıxarılması yaxud həbs məqsədilə ekstradisiya tələb etdikdə, əgər sorğu edilən Tərəf belə hesab edirsə ki, məhkəmənin rəyi ilə nəticələnmiş proses cinayətə görə məhkum edilən hər bir şəxs üçün məcburi sayılan minimum müdafiə hüquqlarını təmin etmir, bu halda həmin məqsədlərlə ekstradisiyadan imtina edə bilər. Bununla belə, əgər sorğu edən Tərəf müdafiə hüquqları ilə təminat verilən məhkəmə işinə yenidən baxılması hüququnu tələb edən şəxs üçün kifayət qədər təminatlar verərsə, ekstradisiya həyata keçirilməlidir. Bu qərar sorğu edən Tərəfə, əgər ittiham edilən şəxs

hökmdən protest vermirsə, onu icra etmək, ya da əks halda, ekstradisiya edilən şəxsə qarşı prosesə başlamaq səlahiyyəti verir.

2. Sorğu edilən Tərəf ekstradisiyası tələb olunan şəxsə onun özü olmadıqda çıxarılmış hökm barədə məlumat verdiyi halda sorğu edən Tərəf bu məlumatı həmin dövlətdə cinayət prosesi barədə rəsmi bildiriş hesab etmir.”.

**IV fəsil**

Maddə 4

Konvensiyaya aşağıdakı müddəalar əlavə edilir:

**“Amnistiya**

Sorğu edilən dövlətdə barəsində amnistiya elan edilmiş və həmin dövlətin öz cinayət qanunvericiliyinə uyğun olaraq məhkəmə qaydasında təqib etməyə ixtiyarlı olduğu cinayətlərlə bağlı ekstradisiya həyata keçirilmir.”.

**V fəsil**

Maddə 5

Konvensiyanın 12-ci maddəsinin 1-ci bəndi aşağıdakı müddəalarla əvəz edilir:

“Sorğu yazılı şəkildə verilir və sorğu edən Tərəfin Ədliyyə Nazirliyi tərəfindən sorğu edilən Tərəfin Ədliyyə Nazirliyinə ünvanlanır; bununla belə, diplomatik kanaldan istifadə imkanı da istisna edilmir. Digər rabitə vasitələri iki Tərəf arasında birbaşa saziş yolu ilə təşkil edilə bilər.”.

**VI fəsil**

Maddə 6

1. Bu Protokol Avropa Şurasının üzvü olub, Konvensiyanı imzalamış dövlətlərin imzalaması üçün açıqdır. Protokol ratifikasiya edilməlidir. Təsdiqnamələr Avropa Şurasının Baş katibinə saxlanılmağa verilir.

2. Protokol üçüncü təsdiqnamənin saxlanılmağa verilməsindən 90 gün sonra qüvvəyə minir.

3. Protokolu sonradan ratifikasiya edən imzalamış hər hansı Tərəf üçün Protokol onun öz təsdiqnaməsini saxlanılmağa verməsindən 90 gün sonra qüvvəyə minir.

4. Avropa Şurasının üzvü olan dövlət eyni zamanda yaxud qabaqcadan Konvensiyanı ratifikasiya etmədən bu Protokolu ratifikasiya edə bilməz.

Maddə 7

1. Konvensiyaya qoşulmuş hər hansı dövlət Protokolun qüvvəyə minməsindən sonra bu Protokola qoşula bilər.

2. Belə qoşulma bu barədə sənədin Avropa Şurasının Baş katibinə verilməsi yolu ilə həyata keçirilir; həmin sənəd saxlanılmağa verildiyi tarixdən 90 gün sonra qüvvəyə minir.

Maddə 8

1. Hər hansı dövlət imzalama zamanı yaxud təsdiqnaməni saxlanılmağa verərkən bu Protokolun qüvvəsinin şamil ediləcəyi ərazini və ya əraziləri müəyyən edə bilər.

2. Hər bir dövlət təsdiqnaməsini yaxud qoşulma barədə sənədini saxlanılmağa verərkən ya da sonradan istənilən vaxt Avropa Şurasının Baş katibinə ünvanlanmış bəyanatı ilə bu Protokolun qüvvəsini bəyanatda müəyyən edilmiş və beynəlxalq əlaqələrinə görə həmin dövlətin məsuliyyət daşıdığı yaxud adından müqavilələr bağlamağa səlahiyyətli olduğu hər hansı digər əraziyə və ya ərazilərə şamil edə bilər.

3. Bu məndə uyğun olaraq bəyanatda göstərilən hər hansı ərazi ilə bağlı verilmiş hər hansı bəyanat Avropa Şurasının Baş katibinə ünvanlanmış bildiriş göndərmək yolu ilə geri götürülə bilər. Bu cür geri götürülmə Avropa Şurası Baş katibinin bildirişi aldığı tarixdən altı ay sonra qüvvəyə minir.

Maddə 9

1. Konvensiyanın müddəaları ilə bağlı dövlətin etdiyi qeyd-şərtlər, əgər dövlət onları imzalama zamanı yaxud öz təsdiqnaməsini saxlanılmağa verərkən bəyan edirsə, bu Protokola da tətbiq edilir.

2. Hər hansı dövlət imzalama zamanı yaxud öz təsdiqnaməsini saxlanılmağa verərkən elan edə bilər ki, o:

a) I fəsli qəbul etməmək;

b) II fəsli qəbul etməmək yaxud onu yalnız 2-ci maddəyə aid olan müəyyən cinayətlər yaxud cinayət kateqoriyaları ilə bağlı qəbul etmək;

c) III fəsli qəbul etməmək yaxud yalnız 3-cü maddənin 1-ci bəndini qəbul etmək;

d) IV fəsli qəbul etməmək;

e) V fəsli qəbul etməmək hüququnu özündə saxlayır.

3. Razılığa gələn hər hansı Tərəf bundan əvvəlki bəndə uyğun olaraq özündə saxladığı hüququ Avropa Şurasının Baş katibinə ünvanlanmış bəyanat vasitəsilə geri götürə bilər; bəyanat alındığı andan qüvvəyə minir.

4. Konvensiyanın müddəalarına uyğun olaraq bu Protokola edilmiş qeyd-şərti qəbul etmiş yaxud bu Protokolun müddəasına uyğun olaraq qeyd-şərt etmiş Razılığa gələn Tərəf göstərilən müddəanı Razılığa gələn digər Tərəfin tətbiq etməsini tələb edə bilməz, lakin bununla belə, əgər onun qeyd-şərti qismənndirsə yaxud şərtlərdən asılıdırsa, bu müddəanın özü qəbul etdiyi həddə tətbiqini tələb edə bilər.

5. Bu Protokolun müddəalarına başqa heç bir qeyd-şərt qəbul edilə bilməz.

Maddə 10

Avropa Şurasının Cinayət Problemləri üzrə Avropa Komitəsi bu Protokolun qəbul edilməsi barədə məlumatlandırılır və onun yerinə yetirilməsi gedişində yarana bilən hər hansı problemin dostcasına tənzimlənməsinə kömək üçün zəruri olan hər şey edir.

Maddə 11

1. Razılığa gələn hər hansı Tərəf Avropa Şurasının Baş katibinə bildiriş göndərməklə bu Protokolu özünə aid olan həddə denonsasiya edə bilər.

2. Belə denonsasiya Baş katibin bu cür bildirişi aldığı tarixdən altı ay sonra qüvvəyə minir.

3. Konvensiyanın denonsasiyası avtomatik olaraq bu Protokolun denonsasiyasına səbəb olur.

Maddə 12

1. Avropa Şurasının Baş katibi Avropa Şurasının üzvü olan dövlətləri və Konvensiyaya qoşulmuş hər hansı dövləti aşağıdakılar barədə xəbərdar edir:

a. bu Protokolun hər hansı imzalanması;
b. hər hansı təsdiqnamənin saxlanılmağa verilməsi;
c. 6-cı və 7-ci maddələrə uyğun olaraq bu Protokolun qüvvəyə minməsinin hər hansı tarixi;
d. 8-ci maddənin 2-ci və 3-cü bəndlərinin müddəalarına uyğun olaraq alınmış hər hansı bəyanat;
e. 9-cu maddənin 1-ci bəndinin müddəalarına uyğun olaraq alınmış hər hansı bəyanat;
f. 9-cu maddənin 2-ci bəndinin müddəalarına uyğun olaraq edilmiş hər hansı qeyd-şərt;
g. hər hansı qeyd-şərtin 9-cu maddənin 3-cü bəndinin müddəalarına uyğun olaraq geri götürülməsi;
h. 11-ci maddənin müddəalarına uyğun olaraq alınmış hər hansı bildiriş və denonsasiyanın qüvvəyə minmə tarixi.

Bunların təsdiqi olaraq, lazımi qaydada səlahiyyət verilmiş aşağıda imza edənlər bu Protokolu imzaladılar.

1978-ci il martın 17-də Strasburqda ingilis və fransız dillərində, hər iki mətni eyni qüvvəyə malik olan yeganə nüsxədə imzalanmışdır; həmin nüsxə Avropa Şurasının arxivində saxlanılacaq. Avropa Şurasının Baş katibi təsdiq edilmiş surətləri Protokolu imzalamış və qəbul etmiş dövlətlərə göndərir.

**“Ekstradisiya haqqında” Avropa Konvensiyasına dair**
**Azərbaycan Respublikasının**
**QEYD-ŞƏRTLƏRİ**

1. “Konvensiyanın 1-ci maddəsinin tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası humanist əsasları rəhbər tutaraq, sorğu edilən şəxsin səhhətinin vəziyyətini və ya yaşını nəzərə alaraq, onun verilməsindən imtina hüququnu özündə saxlayır”.

2. “Konvensiyanın 1-ci maddəsinin tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası şəxsin verilməsinin Azərbaycan Respublikasının suverenliyinə və ya milli təhlükəsizliyinə ziyan vuracağını güman etməyə kifayət qədər əsası olduqda, həmin şəxsin verilməsindən imtina edəcək”.

3. “Konvensiyanın 1-ci maddəsinin tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası verilməsi nəticəsində sorğu edilən şəxsin sorğu edən dövlətdə işgəncəyə yaxud qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara yaxud cəzaya məruz qalacağını güman etməyə kifayət qədər əsaslar olduqda, həmin şəxsin verilməsindən imtina edəcək”.

4. “Konvensiyanın 1-ci maddəsinin tətbiqi ilə əlaqədar Azərbaycan Respublikası, verilməsi nəticəsində sorğu edilən şəxsin irqinə, milliyyətinə, dilinə, dininə, vətəndaşlığına və ya siyasi baxışlarına görə təqibə məruz qalmasına güman etməyə kifayət qədər əsaslar olduqda, həmin şəxsin verilməsindən imtina edəcək”.

**“Ekstradisiya haqqında” Avropa Konvensiyasına dair**
**Azərbaycan Respublikasının**
**BƏYANATLARI**

1. “Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində Konvensiyanın müddəalarının yerinə yetirilməsinə işğal olunmuş ərazilər azad olunana qədər təminat vermək iqtidarında deyildir (işğal olunmuş ərazilərin sxematik xəritəsi əlavə olunur)”.

2. “Konvensiyanın 6-cı maddəsinin 1-ci hissəsinin “a” bəndi ilə əlaqədar Azərbaycan Respublikası bəyan edir ki, Azərbaycan Respublikası Konstitusiyasının 53 (II) maddəsinə əsasən Azərbaycan Respublikasının vətəndaşı xarici dövlətə verilə bilməz. Bunu nəzərə alaraq, hər bir halda Azərbaycan Respublikası vətəndaşının verilməsindən imtina ediləcək”.

3. “Konvensiyanın 21-ci maddəsi ilə əlaqədar Azərbaycan Respublikası bəyan edir ki, verilən şəxslərin Azərbaycan Respublikası ərazisindən tranzit daşınmasına, verilmə üçün müəyyən edilmiş şərtlərə riayət edilməklə icazə veriləcək”.

4. “Konvensiyanın 23-cü maddəsi ilə əlaqədar Azərbaycan Respublikası bəyan edir ki, şəxsin verilməsi ilə bağlı sorğular və onlara əlavə edilən sənədlər Azərbaycan dilinə tərcümə edilməklə təqdim olunmalıdır”.

**“Ekstradisiya haqqında” Avropa Konvensiyasının**
**Əlavə Protokoluna dair**
**Azərbaycan Respublikasının BƏYANATI**

“Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində Protokolun müddəalarının yerinə yetirilməsinə işğal olunmuş ərazilər azad olunana qədər təminat vermək iqtidarında deyildir (işğal olunmuş ərazilərin sxematik xəritəsi əlavə olunur)”.

**“Ekstradisiya haqqında” Avropa Konvensiyasının**
**İkinci Əlavə Protokoluna dair**
**Azərbaycan Respublikasının BƏYANATI**

“Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində Protokolun müddəalarının yerinə yetirilməsinə işğal olunmuş ərazilər azad olunana qədər təminat vermək iqtidarında deyildir (işğal olunmuş ərazilərin sxematik xəritəsi əlavə olunur)”.